**Martynas Mazvydas adına Litva Milli Kitabxanası ilə**

**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası arasında**

**Əməkdaşlıq haqqında Memorandum**

Bundan sonra "İştirakçılar" adlandırılacaq Martynas Mazvydas adına Litva Milli Kitabxanası və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

İki kitabxana arasında mövcud əlaqələri daha da gücləndirmək niyyəti və müvafiq əməkdaşlığı inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

**Paraqraf 1**

İştirakçılar kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, elmi biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, rəqəmsal transformasiya, istifadəçilərin tələblərinə cavab verən müasir xidmətlər, səriştə modeli və kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

**Paraqraf 2**

Kitabxanaşünaslıq və kitabxana informasiyası sahələrində inkişaf perspektivləri və nailiyyətlər üzrə təcrübə və bilik mübadiləsi məqsədilə İştirakçılar aşağıdakı istiqamətlərdə əməkdaşlığı inkişaf etdirəcəklər:

- kitabxananın biblioqrafiyası proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- verilənlər bazalarının idarə edilməsi;
- informasiya, kommunikasiya və irsin mühafizəsi sahələrində elmi tətbiqi tədqiqatların aparılması;
- nadir kitabların mühafizəsi, bərpası və konservasiyası;
- kitabxanaların arxivinin keyfiyyətinin yüksəldilməsi məqsədilə nadir kitabların və əlyazmaların rəqəmsal nüsxələrinin mübadiləsi də daxil olmaqla beynəlxalq kitab mübadiləsinin inkişafı;
- sənədli irs sərgilərinin təşkili;
- təcrübə mübadiləsi və sənədli filmlərin rəqəmsallaşdırılması və mühafizəsində iştirak etmək
- irs, onu Avropa mədəni irs zonasına uyğun və inteqrativ etmək;
- kitabxana işinin bütün sahələrinin mütəxəssisləri arasında təcrübə mübadiləsi aparmaq, təlim kurslarının, seminarların, elmi konfransların və simpoziumların təşkili.

**Paraqraf 3**

İştirakçılar maksimum yeddi (7) gün müddətində bir-birindən kitabxanaçıları qəbul etməyə razılaşırlar.

Kitabxanaçıların yaşayış, yemək və nəqliyyat xərcləri göndərən ölkə tərəfindən ödənilecək. Səfər edəcək kitabxanaçıların sayı hər il qarşılıqlı şəkildə müəyyən ediləcəkdir. Kitabxanaçı mühazirəçi kimi ezamiyyətə getdiyi halda, ona gündəlik yaşayış müavinəti (sutkalıq) istisna olmaqla, ezamiyyət xərcləri ödənilir və ya təzminat şəklində verilir

**Paraqraf 4**

Bu Anlaşma Memorandumuna İştirakçıların yazılı qarşılıqlı razılığı ilə Memorandumun ayrılmaz hissəsi olan və 6-cı bəndə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

**Paraqraf 5**

Bu Memorandum beş (5) il müddətinə bağlanılır və İştirakçılardan biri onun müddətinin bitməsinə ən azı üç (3) ay qalmış onu ləğv etmək niyyəti barədə digər İştirakçıya yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti beş (5) il müddətinə uzadılır.

**Paraqraf 6**

Bu Memorandum imzalandığı tarixdə qüvvəyə minir.

**Paraqraf 7**

Bu Memorandum İştirakçı dövlətlər üçün beynəlxalq hüquqla tənzimlənən heç bir hüquq və öhdəlik yaratmır.

Bu Memorandum ___Bakı___ şəhərində "20" ___Sentyabr___ 2023-cü il tarixində iki əsl nüsxədə olmaqla, hər biri Azərbaycan, Litva və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər etibarlıdır. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

Martynas Mazvydas adına Litva Milli Kitabxanası

Baş Direktor
Gudauskas Renaldas

İmza:

M.F.Axundov adına
Azərbaycan Milli Kitabxanası

Direktor
Prof. Kərim Tahirov

İmza:

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ M.F. AXUNDOV adına AZƏRBAYCAN MİLLİ KİTABXANASI